**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.353**

**AYTƏN AĞAMALIYEVA***

# AZƏRBAYCAN ZİKR MƏCLİSLƏRİNDƏ RƏQS ELEMENTLƏRİ

*Təqdim olunmuş məqalədə Azərbaycanın qədim tarixinə nəzər salınır. Hər bir xalqın özünəməxsus ayini, mərasimi, dini təsəvvürləri və baxışlarından bəhs olunur. Həmçinin Azərbaycanın bir çox bölgələrində qədim tarixi olan və gizli keçirilən zikr məclisləri araşdırılır, burada istifadə olunan rəqs elementləri haqqında məlumat verilir.*

***Açar sözlər:*** *zikr, rəqs, məclis, təbiət, həyat, ritm*

## Giriş

Tarixə nəzər salsaq, bəşər insanı dünyanın sirrini açmağa daha meyllidir. Özümüz tərəfindən təbii olaraq bu möcüzəvi dünyanın dərkinə varmaq üçün ilk öncə əcdadlarımızın yaşadığı dövrə nəzər salmalı, onların düşüncələrini və düşünən zaman etdiyi kortəbii hərəkətləri nəzərdən keçirmək vacibdir. Müxtəlif mədəniyyətləri, inancları və bu inanclardan meydana çıxan mərasimlərlə bəşər cəmiyyətinin fərqli ərazilərdə müxtəlif mədəniyyətlərə əsaslanmasına baxmayaraq demək olar ki, hər bir quruluşun əsas missiyası yaşamaq uğrunda mübarizəyə köklənir. Bu mübarizə zamanı insanın həm daxili, həm də zahiri özəllikləri üzə çıxır və bəşər övladı yaşadığı müddətdə təbiətin möcüzəsinə qarışaraq yeniliklər axtarışında olur. Özünü dərk edərkən müxtəlif bacarıqların aşkar edilməsi və bu bacarıqların zamanla vərdişə çevrilməsi nəsildən-nəsilə ötürülərək ənənə halını alır. Bunun nəticəsi olaraq, meydana çıxan təriqətlər müxtəlifliyinə baxmayaraq, ortaq köklərə əsaslanaraq, tarixin inkişaf yollarına qədəm qoyur.

## Əsas məzmun

Ayinlər, mərasimlər, zikrlər dedikdə ayrı-ayrı xalqların folkloru, adət-ənənələri nəzərdə tutulur. Hər bir xalqın özünəməxsus ayini, mərasimi, dini baxışları mövcuddur. Bu baxışlar və yaranan təsəvvürlər onların tarixinin qədim və zəngin köklərini üzə çıxaran mühüm amildir. Bir xalqın tarixinin zəngin olması, onun mədəniyyətinin çoxşaxəli olmasını sübut edən ən vacib dəlildir.

Azərbaycanın qədim tarixə mənsub olması təbii olaraq, onun genetik kodunu müəyyənləşdirir. Odlar yurduna nəzər salanda, mədəniyyətin zənginliyinə heyrətlənməmək mümkün deyildir. Kökü eramızdan əvvələ aid olan Qobustan qayaüstü rəsmləri, Ordubad ərazisində Gəmiqayada aşkarlanan əl-ələ vermiş rəqs edən insan şəkilləri, Qızılvəng və Gəncəçay abidələrində tapılan küpələr üzərində əks olunan Yallı rəqsinin elementləri və rəqsin rəsmi ilə yanaşı müxtəlif simvolların işarələnməsi, yəni, su, hava, səma günəşi, xəttlər və yaxud işarələr şəklində göstərilmişdir.

Azərbaycanın bir çox bölgələrində zikr məclislərinə rast gəlinir. Qazax, Şamaxı, Sabirabad, Qobustan və dini ayinlərin geniş yayıldığı digər bölgələrdə Ələvi, Bəktaşi, Nəqşi-bəndiyə, Mövləvi, Şaziyə, Cəlbətiyə, Xəlvətiyə və bir çox təriqətlər qorunub saxlanılmışdır. Bu təriqətlərin özünəməxsus şərtləri vardır və onların mövcud qaydaları müvafiq şəkildə müxtəlif mərasimlərdə öz əksini tapmışdır.

Bizə məlum olduğu kimi, bu məclislər gizli şəkildə fəaliyyət göstərməsinə baxmayaraq, bütün dövrlərdə öz aktuallığını saxlamışdır. Müxtəlif sahələrdə hər araşdırmaçı öz sənətinə uyğun şəkildə zikr məclislərinin gizli sirrlərini açmağa çalışmış və bu günə qədər əldə etdikləri müəyyən məlumatları bizə çatdırmağa nail olmuşlar. Zikr məclisləri kişi və qadınların toplu şəklində və ayrı-ayrılıqda dini xarakterli ayinlərindən ibarət mərasimdir. Bəzi ekspedisiyalara əsaslanaraq, Qazaxda keçirilən zikr məclislərinə nəzər salaq. Əldə etdiyimiz ekspedisiya 03.12.2004-cü ilə aiddir. Bu zikr məclisi gizli şəkildə Qazaxda keçirilmiş, burada baş verən zikrləri professor Gülnaz Abdullazadə, professor Gürbüz Aktaş və tələbələr müşahidə etmişlər. Alınmış mənbələrə görə, Azərbaycanda təşkil olunan bu mərasimin kökü XIII əsrdə Orta Asiya ölkələrində təşkil olunan mərasimlərə əsaslanır. Türkiyədə isə bu zikr məclisləri Ayətulla Mövləvi tərəfindən yaradılmış və müxtəlif bölgələrdə bu təriqətlərə xidmət göstərən dindarlar vasitəsilə dünyanın bir çox ölkələrinə yayılmış, Azərbaycan

torpaqlarına da elə bu yolla gəlmişdir. XIX əsrə qədər müxtəlif bölgələrdə Xəlvətiyə və Cəlvətiyə təriqətləri fəaliyyət göstərsə də, müəyyən müddət sonra onlar öz fəaliyyətini dayandırmışdır. Yalnız Nəqşi-bəndiyyə təriqətində elm inkişaf etdiyi üçün bizim dövrə qədər gəlib çatmışdır. Elmlə əlaqəsi olmayan təriqətlər müəyyən zaman fasilələrindən sonra tarixin yaddaşından silinmişlər.

Bütün bu ayinlər, mərasimlər və zikrlər bəşər tarixinin bir parçası kimi hər zaman mövcud olmuşdur. Bəşər övladı yaşadıqlarını, yaratdıqlarını hər hansı vasitə ilə göstərməyə can atan bir varlıqdır. Təbii ki, burada ilahi varlığın bizə bəxş etdiyi istedad da özünü göstərir. Amma insan övladı öz üzərində işləyərək, yaşam səviyyəsinin və gücünün özəlliyini fərqli sahələrdə göstərə bilər. Hal-hazırda bizim toxunacağımız mövzu dini baxımdan qəbul olunmaz olsa da, bu bizim tariximizdir və adət-ənənələrimizdən irəli gələrək, kökü din tarixi qədər uzaq keçmişi əhatə edən zikr məclislərinin öyrənilməsini vacib edir.

Zikr məclisləri daha çox sufi görüşləri ilə tanınsa da, dünyanın müxtəlif ərazilərini əhatə etmişdir. Ümumi olaraq, bu təriqətlərin tarixi islamın tarixinə əsaslanır. Bu ibadət forması Qədim Şərq inancları kimi mistik xarakter daşımış, asketizm elementləri və islam inanclarının sintezindən yaranaraq, islam dünyasının bütün bölgələrinə yayılmış və yüz illər boyu inkişaf etmişdir. Tarixə nəzər salsaq, sufizm mistik ənənələrinin daha güclü vüsət tapdığı Hindistan, Pakistan, Misir, İran, Anadolu kimi qədim məskənlərdə, yəni mədəniyyətin zəngin olduğu bölgələrdə daha geniş yayılmışdır. Sözsüz ki, bu təriqətlərin varlığı və qəbul olunması birmənalı deyil. Tarix boyu zikr məclisləri müxtəlif müzakirə və mübahisələrə məruz qalmaqdadır. “İslamçılar” tərəfindən “bidət” adlanan rəqs səma hərəkətləri əsasən İraq, İran, Türkiyə, Şimali Qafqazın bəzi bölgələrində və əsasən Hind yarımadasında qalmaqdadır.

Azərbaycan zikr məclislərini araşdırmadan əvvəl, cahanı vəsf etməmək mümkün deyildir. Dünyanı məhvərində saxlayan isə həyatın ritmi və yaradılışın mayəsidir. Ritmin bəşər cəmiyyətində rolu sanki zəncirvari hərəkətə bənzəyir. Hər şey bir-biri ilə əlaqəli olaraq, ritm üzərində qurulur və yaşamın fəlsəfəsinə ecazkar şəkildə təsir göstərir. Dünyanın dövr etməsi, suyun axması, odun yanması, təbiətdə baş verən kiçik hadisədən böyük hadisəyə qədər hər şeydə onun möcüzəsini görməmək, fəlsəfəsinə dalmamaq mümkün deyildir. Və bilavasitə bunların ən ideal nümunəsi kimi insanı göstərmək olar. Canlı aləmə nəzər salsaq, təbiətdə yaranan hər bir zərrə, bitkilər, heyvanlar, ən ali səviyyədə göstərilən insan hər hansısa bir qüvvənin lütfüdür. Və biz onu Tanrı adlandırırıq. Bu mükəmməl yaradılışı bir-birinə bağlayan təbii ki, hansısa fövqəltəbii qüvvədir. Hər canlı kimi insan həyatını nizama salan daxili və xarici gücün vəhdətindən yaranan ritm insanı vəcdə gətirərək, həyat eşqini qüvvətləndirməklə yanaşı, onun özünüdərk və kəşf etməsinə, hər hansı bir bacarığa sahib olmasına təkan verir. Bəsirət gözü açıq olan insan batini və zahiri hadisələri özünəməxsus şəkildə açaraq, özünün dərkinə varır, həyatın ritmindən zövq almağa çalışır. Beləliklə, cəmiyyəti öz ardınca aparan insan ordusu yetişir. Nəticədə, ilahi qüvvə ilə yanaşı, insanın idrakı vəhdət daşıyır. Bəşər cəmiyyəti yaradılışdan duyğularla hərəkət etmiş və ritmin ahəngini məhəbbətlə kökləməyi bacarmışdır. Məhəbbət zamanı gəldikdə duyğular sanki quşlar kimi qanad çalır, şəlalələr kimi şırıldayır, alov kimi alışır-yanır. Həyatdan zövq alaraq, ruhu yenilənir, ilhamlanır və eşq səbəbi onu dünyanın ən güclü insanı edir. Hər kəs sevgisini izah etməkdə çətinlik çəkərkən, söz, musiqi, rəqs onun köməyinə yetişir. Beləliklə, insanın duyğularını ifadə etməsi zərurəti yaranır.

Azərbaycan mədəniyyətinə nəzər salsaq, kökü eramızdan əvvəl III-V minillik dövrünü əhatə edən zəngin irslə qarşılaşırıq. Bu zəngin mədəniyyətin sütunu ritmdir. Ritmin insan həyatındakı yeri onun yaşama səbəbidir. Və insan bu ritmləri ilk növbədə özünəməxsus çalarlarla poetik fəlsəfi tərzdə təqdimetmə qabiliyyətinə malikdir. Amma bunu inkişaf etdirmək üçün müxtəlif dini ayinlər, mərasimlər, şənliklər özünəməxsus yer tutur. İlk növbədə, Azərbaycan musiqisinin ən gözəl nümunəsi olan muğam və dərviş toylarında muğamdan istifadə edərək, sufizm ayinləri ilə rəqs elementlərinin cizgiləri, insanı vəcdə gətirməsi, zikr, vird vasitəsilə eşqin izahı və vəcd halında yaranan ekstaz halı, real hadisələrin baş verməsi kimi hadisələri misal çəkmək olar.

Bu ayinləri Azərbaycan mədəniyyətinin bir çox sahələrində, o cümlədən, poeziya, musiqi, rəqs, balet nümunələrində də görmək mümkündür.

Azərbaycan baletlərinə nəzər salsaq, bir çox sənətkarların yaradıcılığında bu qarşılıqlı əlaqəni görə bilərik. Mövzumuz zikr hərəkətləri olduğu üçün biz bu hərəkətləri balet səhnələrindəki

hərəkətlərlə əsaslandırırıq. Hərəkətlərin əsasını və ritmini dua, təbiətə, Allaha itaət təşkil etmişdir. Azərbaycan baletlərində demək olar ki, bu hərəkətləri görməmək və hiss etməmək olmaz. "Min bir gecə", "Yeddi gözəl", "Leyli və Məcnun", "Eşq və ölüm", "Nizami", "Qobustan kölgələri", "Babək", "Nəsimi" baletlərini buna nümunə olaraq göstərmək mümkündür. Demək olar ki, bu baletlərin qayəsində səma, kainat, günəş, insan duyğuları, eşq, Allaha inam kimi hisslər motiv olaraq nəzərdə tutulmuşdur. İki balet üzərində bu təhlillərin aparılmasını izləyək. "Nəsimi" baletinin bəstəkarı Fikrət Əmirov, libretto müəllifi isə Əjdər Ulduzdur. Birpərdəli, üç şəkildən ibarət olan bu baletdə sufinin gələcəyi, səyahətləri və edam səhnələri yer almışdır. Qısa məzmuna nəzər salsaq, bu baletdə sufi təliminin öyrədilməsi, kainatın sirrlərinin açılması və dayanmadan hərəkətdə olmasına işarə edərək dünyanın fəlsəfəsini bu təlimlərdə açmağa nail olacağı, dünyanın dörd bir tərəfində bu təlimin yayılmasına xidmət etmək işıqlandırılmışdır. Bu baletdə istifadə olunan hərəkətlər sufizm ideyaları ilə birbaşa bağlıdır. Hərəkətlərdən sufi fikirlər və ayinlər aydın görünür. Bu baletin hərəkətlərinə ayaq və başları ilə fırlanmalar, əllərin yuxarıya doğru açılması, hərəkətlərin dörd saydan bir çox saya qədər qalxması xasdır. Baletdə həmin hərəkətlər təbiət hadisələri ilə birbaşa bağlıdır. Hərəkətlər sanki dünyanın varlığını, ahəngini ifadə edir. Paralel olaraq, balet hərəkətlərindən də istifadə olunur. Amma baletdə bu iki nümunənin: köhnə və yeni hərəkətlərin sintezi, vəhdəti gözəl sənət nümunəsinin ərsəyə gəlməsinə şərait yaratmışdır. Beləliklə, Nəsimi baleti ilə Azərbaycanın tarixi adət-ənənələrinə sadiq qalaraq, zikr hərəkətləri ilə zəngin müasir bir əsər ortaya çıxarmağa nail olmuşlar.

Bir digər nümunə "Qobustan kölgələri" baletinin bəstəkarı Fərəc Qarayev, quruluşçu-baletmeysterləri Rəfiqə Axundova və Maqsud Məmmədovdur. Baleti təhlil edərkən, adət-ənənələrimizin ən gözəl nümunəsi olduğunun doğruluğuna bir daha əmin olmaq olar. Bu balet Qobustan tarixi irsinin canlandırılmasının ən gözəl nümunəsidir. Balet klassik ruhun, müasir dinamikasında rəngli bir simvolik ahəng yaratmışdır. Bu balet məzmun olaraq, insan ruhunun təbiətin təzadlı akustikasında göstərilmişdir. Tanrının yaratdığı təbiətin insan xarakterinin ayrılmaz parçası olmasını hər biri öz fəaliyyəti ilə çatdırmağa nail olmuşdur. Bu baletin əsas ideyası şüuraltı düşüncədə insanın təbiətlə ünsiyyəti və bu vasitə ilə bu yolda qabiliyyətin mümkünlüyüdür. Dörd pərdədən ibarət olan baletin hər pərdəsi insanın ruhunun təbiətlə vəhdətini və təbiətdən gələn insan-təbiət kompleksinin açılmasını ehtiva edərək, insanın gücünün təbiətdə olmasını bir daha sübut edir. Bu komplekslərdə yalnız insan düşüncəsi, insan əməyinin qalibiyyəti vurğulanır. Baletin birinci pərdəsi təbiət ünsürləri mövqeyində çıxış edir: su, od, torpaq, hava. İkinci pərdədə günəş, üçüncü pərdədə ov, dördüncü pərdədə isə rəssam ön planda verilir. Rəssam özü bu pərdələri açaraq, həyatın təbiətlə fəlsəfəsini sübut edir. İnsan həyatın təzadlarını bu varlığın simasında göstərməyə çalışır. Azərbaycanın tarixi nümunəsi olan Qobustan qayalarında birliyin təqdim edilməsi insan gücünün, qüdrətinin, əzəmətinin aşmayacağı heç bir qüvvə olmadığını əmin edir. Yəni, insan öz həyat rəsmini özü yaradır.

Mövzu olaraq seçdiyimiz zikr məclislərində rəqs elementləri bu baleti təhlil etməyimizə imkan verdi. Çünki keçmiş dini inanclar üzərində bərqərar olmuşdur. İnsanlar əməklə məşğul olduqdan sonra ritmlərlə rəqs edir, Allaha, təbiətə bu vasitələr ilə şükür edirdilər. Təbii ki, bu zikrlər vasitəsilə ilə sanki günəş ətrafında fırlanaraq, müxtəlif gündəlik iş prosesini səhnələşdirərək, ovu, əməyi, günəşi, torpağı, suyu və bu ünsürlərin həyat qaynağını ifadə edərək, zikr şəklinə salaraq ünsiyyət vasitəsinə çevirmişlər. Və biz bu mövzuları əlaqələndirərkən, baletin müasir dövrdə sanki keçmiş bəşəriyyətin dili kimi çıxış edərək, mükəmməl şəkildə işlənməsi təqdim olunmuşdur. Bu ecazkar balet nümunəsi bəşəriyyətin neçə minilliklər qət etməsinə baxmayaraq, öz üslub və keyfiyyətlərində yenə də ritm, təbiət, ruh, insan, dini inanclar, adət-ənənələrin bir-biri ilə nə qədər bağlı olduğunu göstərməyə nail olmuşlar. Bəşər tarixi nə qədər müasirliyə can atsa da, yenə öz keçmişinə qayıdaraq, onun sirrini saxlamağa çalışır. Bizim sizə aşılamaq istədiyimiz əsas məqam hər bir yaradıcı insanın öz qələmində real səhnələrə fəlsəfi yön verəndə, yaranışın ritminə varanda, tanrının yaratdığı qədər olmasa da, amma insana ona yaxınlaşma fəlsəfəsini aşılayır. Və bu istedadlı yaradılış insanlar tərəfindən cəmiyyətin maariflənməsinə və zövq almasına xidmət edir. Bu baletdə hərəkətlərin təbiətlə əlaqəsi rəqs vasitəsilə, xoreoqrafik elementlərlə ecazkar bir vəhdət yaradır və əsəri izləyərkən insan keçmişlə gələcəyin vəhdətinin sehrinə düşməyə bilmir.

Bütün bu qeyd olunanları nəzərə alaraq, bu mövzuya toxunmaqda məqsədimiz balet və rəqs

nümunələrində ayrı-ayrı millətlərin Şərq və Qərb mədəniyyətinin adət-ənənələrə köklənən mərasim, ayin və zikr məclislərinin əksini tapmasıdır.

## ƏDƏBİYYAT


1. Aslanova, F. Firəngiz Əlizadənin "Dərviş" əsərində milli və müasir ünsürlərin tədqiqi. // "Musiqi Dünyası" jurnalı, 1/74, Bakı, 2018, s.68- 70
2. Qarayev, N. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı, Elm və təhsil,- 2012, 326 səh.
3. Məmməd, T. Natəvanın poeziyasında gül-çiçəyin təsəvvüfi semantikası. // V Beynəlxalq Həmzə Nigari Simpoziumu Materialları. 2022-ci il Şuşa ilinə həsr olunur. Quzanlı /Ağdam, 17-19 may 2022-ci il
4. Rövşənoğlu, K. Qəribə rəqslər edən dindarlar haqda bilmədikllərimiz. https://musavat.biz/news/qeribe-reqsler-eden-dindarlar-haqda-bilmediklerimiz_543910.html


***Bakı Xoreoqrafiya Akademiyası, magistr**

## DANCE ELEMENTS IN AZERBAIJANI ZIKR MEETINGS

The presented article looks at the ancient history of Azerbaijan. Each nation's unique rites, ceremonies, religious ideas and views are discussed. Also, zikr gatherings with ancient history and held in secret in many regions of Azerbaijan are investigated, and information is provided about the dance elements used here.

**Keywords:** *zikr, dance, assembly, nature, life, rhythm*

## ЭЛЕМЕНТЫ ТАНЦА НА АЗЕРБАЙДЖАНСКИХ СОБРАНИЯХ ЗИКРА

В представленной статье затрагивается факты из древней истории Азербайджана. Здесь говорится о уникальных обрядах, церемониях, религиозных идеях и взглядах каждого народа. Также исследованы собрания зикра, имеющие древнюю историю и проводимые тайно во многих регионах Азербайджана, и предоставлена информация об используемых здесь танцевальных элементах.

**Ключевые слова:** *зикр, танец, собрание, природа, жизнь, ритм.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 13.01.2025**
**Son daxilolma tarixi:17.02.2025**